AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI SLAVYAN UNİVERSİTETİ

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş**

**"AZƏRBAYCANŞÜNASLIĞIN AKTUAL MƏSƏLƏLƏRİ:**

**TƏDQİQAT, ELMİ DİSKURS VƏ BEYNƏLMİLƏLLƏŞMƏ"**

**XV Beynəlxalq elmi-praktiki konfransı**

# MƏLUMAT MƏKTUBU

Hörmətli həmkarlar!

2 və 3 may 2024-cü il tarixlərində Bakı Slavyan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual məsələləri: tədqiqat, elmi diskurs və beynəlmiləlləşmə" XV Beynəlxalq elmi-praktiki konfrans keçiriləcəkdir. Konfransın regional bölməsi 20 may 2024-cü il tarixində Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birlikdə Quba şəhərində təşkil olunacaqdır.

Ənənəvi olaraq bu konfrans tədqiqatçıların mədəniyyət, multikulturalizm, filologiya, iqtisadiyyat, hüquq, siyasət və sosial elmlərin digər sahələri üzrə müzakirə platformasına çevrilmişdir.

**Konfransın istiqamətləri:**

1. Qərbi Azərbaycanda təhsil və maarifçilik məsələləri.
2. Qərbi Azərbaycan tarixi-mədəni kontekstdə.
3. Multikultural cəmiyyətlər: Azərbaycan modeli.
4. Yeni dövrün çağırışları: gələcək üçün konturlar.
5. Qarabağ və Şərqi Zəngəzur: Cənubi Qafqazın gələcəyi.
6. COP29: İqlim üzrə beynəlxalq əməkdaşlıqda Azərbaycanın artan rolu.
7. Qloballaşan dünyada Azərbaycanın iqtisadiyyatı və hüquq sistemi.
8. Müasir dövrün filoloji təmayülləri (*Regional bölmə*).

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, ingilis, rus

**Konfransın əsas tarixləri:**

| | |
|---|---|
| Məqalələrin göndərilməsi üçün son tarix | **12 aprel 2024-cü il** |
| Qəbul olunmuş məqalələr haqqında məlumatın verilməsi | **19 aprel 2024-cü il** |
| Konfransın plenar iclasının açılış mərasimi | **2 may 2024-cü il** |

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər**

**Ümumi qeydlər:** Format A4, ölçü 14, şrift Times New Roman, hər tərəfdən kənar boşluqlar 2,5 sm, 1,5 interval, abzas 1,25. Mətnin sözləri sətirdən sətirə keçirilmədən yığılmalıdır.

Müəllif haqqında məlumat **(Forma 1)** və məqalə **(Forma 2)**.

**Forma 1. Müəllif haqqında məlumat**

| | |
|---|---|
| **Müəllifin soyadı, adı, atasının adı** | |
| **İş yeri** | |
| **Vəzifəsi, elmi adı və dərəcəsi** | |
| **Əlaqə telefonu** | |
| **E-mail ünvanı** | |
| **Məqalənin adı** | |
| **Açar sözlər** | |

**Forma 2. Məqalə** (**forma 1**-dən sonra yerləşdirilir)

**Məqalənin strukturu və tərtib qaydaları**

1. Müəllifin soyadı, adı, atasının adı **(tam açıqlanmalı, kiçik hərflərlə, qalın şriftlə, sol tərəfdən).**
2. Elmi dərəcəsi, elmi adı, iş yeri, ölkə, şəhər, istifadə etdiyi əlaqə telefonu **(kiçik hərflərlə, adi şriftlə, sağ tərəfdən).**

3. Məqalənin adı **(böyük hərflərlə, qalın şriftlə, ortadan).**
4. Açar sözlər **(5 sözdən ibarət, iki dildə – Azərbaycan, ingilis).**
5. Məqalənin mətni **(5 səhifəyə qədər**).
6. Ədəbiyyat siyahısı **(qəbul olunmuş qaydada, əlifba sırası ilə**). Ədəbiyyata istinadlar mətndə mötərizədə, mənbənin nömrəsi və səhifəsi göstərilməklə verilir. Məsələn: **[2]** və ya **[2; 5; 8]** və ya **[2, 14-15]** və ya **[2, 17; 7, 233-234].**
7. Xülasə (**75-100 sözə qədər, ingilis və rus dillərində**).

Müəllif haqqında məlumat və məqalə bir faylda **12 aprel 2024-cü il tarixindən gec olmayaraq** aze.studies@bsu-uni.edu.az elektron ünvanına göndərilir.

Çap olunmuş məqalələr toplusu və sertifikat bölmə iclaslarının sonunda müəllifin məruzəsindən sonra təqdim olunacaqdır.

**Təşkilat komitəsi materialların konfrans proqramına daxil edilməsi hüququnu özündə saxlayır.**

Əlaqələndirici şəxs: Kərimova Aygün (Azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının müdir müavini)

Əlaqə nömrələri: +994 12 599-08-70 (318, 133), +994 502129072

Azərbaycan Respublikası, Bakı şəhəri, Bakı Slavyan Universiteti, AZ1014, S.Rüstəm küç., 33.